# Tədris resurslarının səmərəli seçilməsi məsələsi

**Nərminə Məmmədova**
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** nermine_m@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof.İ.H. Cəbrayılov,
ped.ü.f.d. İ.B. Əmirəliyeva

**Açar sözlər:** məktəb, müəllim, şagird, təhsilin məzmunu, tədris resursu, resurs seçmə, səmərəli seçim

**Ключевые слова:** школа, учитель, ученик, содержание образования, учебный ресурс, выбор ресурсов, эффективный выбор

**Key words:** school, teacher, student, content ofeducation, learning resource, resource selection, efficient selection

Ölkəmizdə son dövrdə müxtəlif tipli məktəblərin müasir tədris resursları ilə daha məqsədəuyğun şəkildə təmin edilməsi və onlardan istifadənin genişləndirilməsinə, effektli istifadə məsələlərinə daha çox diqqət yetirilir. Məktəb, təhsil sistemi yarandığı vaxtdan bu günədək, təhsilverənlərin fəaliyyətində tədris resurslardan vəhdətdə istifadə məsələsi böyük önəm daşımışdır. Tədris prosesində tədris resurslardan istifadə zamanı müəllim və şagirdlər arasındakı qarşılıqlı münasibətin, pedaqoji prosesin səmərəliyinə göstərdiyi təsir imkanlarının üzə çıxarılması həmişə aktuallıq və mühüm əhəmiyyət kəsb edən vəzifələrdən biri olmuşdur.

Şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası, habelə təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar, yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində təlimin səmərəliliyi artır. Yəni, daha qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanı əldə edir.

Elektron resursların təlim üstünlüklərinə baxmayaraq, müəllim ənənəvi (yazılı, izahedici illüstrativ və reproduktiv) metodların istifadəsindən tam imtina etməməlidir. Məsələn, müəllim bacarıq və vərdişlərin formalaşması məqsədini qarşıya qoyursa, o daha çox reproduktiv (təkrarlama və model üzrə iş) metodu üstün tuta bilər. Təlimin məzmunu çox mürəkkəbdirsə, çoxlu sayda yeni anlayış və məlumatları bilməyi tələb edirsə, bu zaman ənənəvi yazılı, izahedici-illüstrativ metod daha çox səmərə verə bilər. Bir sözlə, təlimin məqsədindən, məzmunundan, şagirdlərin hazırlığından asılı olaraq müəllim öz seçimini etməlidir.

Müasir tədris avadanlıqları və resursların tədrisdə köməkçi vasitə kimi istifadə edilməsi, müəllimin ənənəvi rolundan yavaş-yavaş sıyrılıb, dəyişən vəzifə-funksiyalar yerinə yetirməyi tələb edir. Tədris resursları (yazılı resurslar; audio-vizual, kompüter proqramları və s.) müəllimləri bu vəzifəni daha yaxşı bir şəkildə yerinə yetirməyə istiqamətləndirir (1).

Müasir dövrdə yerli və xarici firmaların çoxu təhsildə istifadə edilmək üzrə müxtəlif tədris resursları və avadanlıqları müəllim və şagirdlərin xidmətinə təqdim etməkdədir. Bunlardan bəziləri bahalı, bəziləri ucuz, bəziləri rahat, bəziləri isə istifadəsizdir. Bir qisminin istifadə edilməsi asandır, bir qismi isə mürəkkəb bir quruluşda olub, istifadə edənin xüsusi bir təhsil almasını tələb edir.

Yaxşı hazırlıqlı bir müəllimin şərh edəcəyi mövzunu izah edərkən istifadə edəcəyi təlim texnologiysına görə uyğun resurs seçmə imkanı təmin edilməlidir. Effektli bir öyrənmə ancaq

bu şəkildə reallaşa bilər.

Təhsildə hər hansı bir resursun istifadəsi ilk növbədə metodun, tədris resursunun sistematik şəkildə seçilməsini zəruri edir. Bu seçmə prosesinin üç mərhələsi vardır: reallaşdırılması hədəflənən öyrənmə fəaliyyətinə uyğun metodun seçilməsi; metodun tətbiq olunmasına müvafiq tədris avadanlığının seçilməsi; seçilən tədris avadanlığının formasına uyğun resursların seçilməsi, dəyişdirilməsi və dizaynı.

Tədris resursunun seçilməsinə bir sıra tələblər verilir. Həmin tələblər bunlardır:

Təlim prosesində istifadə edilməsi nəzərdə tutulan tədris resursları: tədris proqramına uyğun olmalıdır; seçilən pedaqoji metoda uyğun olmalıdır; qarşıya qoyulan məqsədləri reallaşdırmağa uyğun olmalıdır; mövzuya uyğun elmi məlumatları dəstəkləməlidir; ehtiva edilən məlumatlar doğru və aktual olmalıdır; mövzunun öyrənilməsini asanlaşdırmalı və dəstəkləməlidir; sadə və aydın olmalıdır; şagirdi motivasiya edici və maraq yaradacaq xüsusiyyətlərə sahib olmalıdır; şagirdin iştirakını təmin edici xüsusiyyətlərə sahib olmalıdır; texniki quruluşu (strukturu) çox mürəkkəb olmamalıdır; təqdim etdiyi anlayış və ya fikirləri yaxşı açıqlaya bilməlidir; araşdırılan mövzuya səmərəli töhfə təmin etməlidir; şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmalıdır; şagirdləri yaradıcı və ya tənqidi düşünməyə sövq etməlidir; qarşıya qoyulan məqsədləri reallaşdırmaq üçün fiziki şərait olmalıdır; sərf ediləcək vaxta, əmək və maliyyə vəsaitinə müvafiq olmalıdır; iqtisadi cəhətdən sərfəli olmalıdır (2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12).

Yalnız bu tələblər müəyyən edildikdən sonra, müəllimlər onların seçilməsini həyata keçirə bilər. Tədris resurslarının seçilməsi ilə bağlı bir sıra ümumi prinsiplər vardır. Tədris resurslarının seçilməsinin ümumi prinsipləri arasında aşağıdakılar xüsusilə seçilir:

— Tədris resurslarının seçilməsinin təhsilin hədəfləri, təlimin məqsədlərindən asılılığı;

— Tədris resurslarının seçilməsinin metodun seçimindən asılılığı;

— Tədris resurslarının seçilməsinin fənnin və mövzunun xüsusiyyətlərindən asılılığı;

— Tədris resurslarının seçilməsinin resursun xüsusiyyətlərindən, istifadəyə yararlı olma vəziyyətindən asılılığı;

— Tədris resurslarının seçilməsinin müəllimin xüsusiyyətlərindən (istəkli olma, tədris resurslarının effektivliyinə inanma, məlumat səviyyəsi, istifadə üçün lazımı bilik və bacarığa malik olma və s.) asılılığı;

— Tədris resurslarının seçilməsinin şagirdlərin xüsusiyyətlərindən (səviyyə fərqləri, öyrənmə bacarığı) asılılığı;

— Tədris resurslarının seçilməsinin fiziki mühitdən (şagirdin sayı, işıqlandırma, böyüklüyü, avadanlıqların mövcud vəziyyəti və s.) asılılığı;

— Tədris avadanlıqları və resursların seçilməsinin məhdudiyyətlər (büdcə, vaxt) amilindən asılılığı.

Tədris resurslarının seçilməsi prinsiplərini əks etdirən sxem (Bax: sxem1)




Təhsil hədəfləri, təlimin məqsədi, qazandırılacaq nailiyyətlər tədris resurslarının seçimində daim diqqət mərkəzində olmalıdır. Tədris resurslarının seçilməsində əsas yanaşma tədris proqramlarındakı hədəf və davranışlara uyğunluqdur. Bunu "məqsəd-resurs" əlaqəsi olaraq da ifadə etmək olar. Fərqli hədəflər üçün fərqli resursların seçilməsi və istifadə edilməsi lazımdır. Xüsusilə gündəlik planları hazırlayarkən tədris resurslarının hansı şərtlərlə və necə istifadə ediləcəyi planda ifadə edilməlidir. Tədris resurslarının planlı şəkildə seçilməsi müəllimin sinif içində bu resursların effektli şəkildə istifadə edilməsini təmin edir.

İstifadə ediləcək tədris avadanlıqları və resursların planlaşdırılması nəzərdə tutulmuş hədəf və davranışları qavratmaya istiqamətli olmalıdır. Əks halda tədris avadanlıqları və resurslarından istifadə istənilən təsiri göstərməyəcək və lazımi effekti verməyəcəkdir.

Fənnin və tədris edilən mövzunun xüsusiyyətləri: Tədris fənninə daxil olan mövzuların xüsusiyyətləri tədris metoduna və resursuna ən qüvvətli təsir edən amildir.

Tədris resurslarının seçilməsində diqqət yetirilməsi lazım olan digər amil mövzunun məzmunu ilə bağlıdır. Fəaliyyət bahalı və ya tətbiq olunması çətin olan video və ya kompüter nümayişi tələb edərsə, bu halda yalnız uyğun şərtlər təmin edildikdən sonra onların istifadəsi mümkündür.

Fizika-kimya fənlərindəki bəzi mövzular tədris resursları, laboratoriya çalışmaları tələb edir.

Humanitar fənlərin tədrisində, xüsusən ədəbiyyat fənnində bədii əsərlərin tədrisində hansı resurs ən yaxşı şəkildə təlimlə birləşəcəksə, o resursdan istifadə edilməlidir.

Müəllimin xüsusiyyətləri. Əksəriyyət hallarda seçilən tədris avadanlıqları və resurslarından istifadə etmək üçün müəllimdən müvafiq bilik, bacarıq və istifadə vərdişi tələb edir. Müəllim özünü tədris avadanlıqları və resurslardan istifadəsi məsələsində qeyri-kafi hiss etdiyi halda ondan imtina etməli, güvənərək istifadə edə biləcəyi və şagirdlərini istədiyi kimi istiqamətləndirə biləcəklərinə üstünlük verməlidir.

Tədris resursunu müəllim seçdiyi üçün, bu seçkidə onun xüsusiyyətləri çox böyük əhəmiyyət kəsb edir. Dəyişik müəllim tipləri vardır: nəzəri tip, dindar tip, iqtisadi tip, siyasi tip, estetik tip və s. Hər tipin dəyişik yanaşma və davranışları, dəyişik metodları ola bilər. Bundan başqa müəllimin yaşı, cinsi, məzun olduğu məktəb, iş stajı, o günkü motivasiyası və psixoloji vəziyyəti kimi amillər də tədris metodunun, resursun seçkisinə təsir göstərir. Məsələn, texniki fənlərin tədrisində tədris avadanlıqları və resursları istifadə etmə,

laboratoriya təcrübələri etmə ilə müəllimin məzun olduğu ali məktəb arasında bir əlaqə vardır. Dərslərində sual soruşulmasına heç icazə verməyən, heç müzakirə mühiti açmayan müəllimlərdə bu vəziyyət müxtəlif amillərdən qaynaqlana bilər.

Şagirdlərin xüsusiyyətləri. Bir dərsdə öyrədiləcək mövzu ilə bağlı müəllimin seçdiyi metod qədər, tətbiq ediləcək resursla bağlı strategiya da əhəmiyyətlidir. Bu məsələdə dəyişik yanaşma və fərqli tətbiqlər vardır. Bunlardan ən idealının hansı olduğu şagirdin yaşına, öyrəniləcək mövzunun xüsusiyyətlərinə və s. görə dəyişir.

İlk növbədə tədris prosesində istifadə ediləcək resurs şagirdin yaş səviyyəsinə uyğun olmalıdır. Bunu təyin etmək üçün "Piagetin zehni inkişaf nəzəriyyəsi"ndən istifadə etmək məqsədəuyğundur.

Konkret əməliyyatlar dövrü (7-11 yaş): Uşaqların düşünmələri məntiqlidir. Edərək, yaşayaraq və duyğu orqanlarından istifadə edərək öyrənmə bu dövrün ən diqqəti cəlb edən xüsusiyyətidir. Vizual və inkasedici resursların əhəmiyyəti, konkret əməliyyatlar bu dövrdə olan ibtidai sinif şagirdləri üçün çox əhəmiyyətlidir.

Mücərrəd əməliyyatlar dövrü (11-15 yaş): Şagirdlər mücərrəd düşünməyə başlayırlar. Hər mövzuda qaydalar təhlil edilərək, konkret olanlardan başqa mücərrəd əməliyyatlarla da maraqlanırlar. Bu dövrdə şagirdlər böyüklərin düşünmə səviyyəsinə çatmaqdadırlar (13).

Şagirdlərin yaş səviyyəsi ilə yanaşı, fərdi qabiliyyətləri, bilik səviyyələri, maraq, motivasiyaları, ailələrin sosial-iqtisadi və mədəni xüsusiyyətləri, şagirdlərin içində olduqları mühit və digər amillər resurs seçkisində təsirli ola bilər. Hər bir təhsilalanın fərdi fərqliliklərinin təlim prosesində diqqətə alınması öyrənməyə böyük töhfə verə bilər. Məsələn, zəkası yüksək olan şagird üçün mövzunun bir dəfə izah edilməsi kifayət edir. Zəka səviyyəsi aşağı olan digər şagird isə eyni mövzunu bir neçə dəfə təkrarladıqdan sonra qavraya bilir. Təhsilalanlarda fərqli öyrənmə tipləri mövcud olduğundan, onlar fərdi xüsusiyyətlərinə görə, dəyişik resurslardan istifadəyə meyilli olurlar. Bu baxımdan müəllim təhsilalanın öyrənmə tipinə müvafiq tədris avadanlığı və resurslarında istifadə etməyə çalışmalıdır. Başqa cür desək, təhsilalanın sahib olduğu qabiliyyətlər və bu qabiliyyətlərin səviyyələri təsbit edilərək, hər bir qabiliyyətin məhdudluğuna uyğun işlər görülməlidir. Əks halda, təlim prosesi yalnız müvəffəqiyyətsizliklə, ya da müəllimin xəyal qırıqlığı ilə nəticələnər. Bu vəziyyət təhsilalanın ruhi istiqamətdən pozulmasına da səbəb ola bilər. Müəllim təhsilalanın müvəffəqiyyəti ilə zəkası arasında mənalı əlaqənin olduğunu göz önündə saxlamaqla birlikdə, hər müvəffəqiyyətsizliyin də, zəkadan qaynaqlanmayacağı gerçəyini nəzərə almalıdır.

Yaxşı bir müəllim, sinifdəki şagirdlərin fərdi xüsusiyyətlərinə görə, lazım olduğunda dəyişik resursları tətbiq edə bilməlidir. Müxtəlif siniflərdə fərqli yaşlı şagirdlər üçün dəyişik resurslardan istifadə edilə bilər. Təhsil, məktəb-ailə əməkdaşlığında davam etdirilən bir iş olduğu üçün, ailənin iqtisadi və mədəni səviyyəsi də, fərqli resurslar tələb edə bilər. Şagirdlərin fərdi xüsusiyyətləri diqqətə alınmadan edilən dərs qaranlığa atılan bir daş kimidir.

Fiziki tədris mühiti (şagirdin sayı, işıqlandırma, böyüklüyü).Tədris avadanlıqları və resursların seçilməsində tədris mühiti: şagirdlərin sayı, işıqlandırma, böyüklüyü əhəmiyyətli rol oynayır. Sinifdə şagirdlərin sayının az olduğu hallarda bütün şagirdlər tədris avadanlıqları və resurslardan kifayət qədər faydalana bilir, edərək və yaşayaraq öyrənmə imkanı təmin olunur. Şagirdlərin sayının çox olması isə bəzi tədris avadanlıqları və resurslarından istifadə etməyi, edərək, yaşayaraq, öyrənməyi məhdudlaşdırır. Belə vəziyyətlərdə bütün şagirdlərə faydalı olacaq tədris avadanlıqları və resursların seçilməsi lazımdır.

Tədris avadanlıqları və resursların istifadə edilməsində sinifdəki fiziki şərtlərin uyğun hala gətirilməsi, ya da mövcud olan mühitə görə tədris avadanlıqları və resursların seçilməsi əsas

amillərdəndir. Məsələn: qaranlıq mühitdə istifadə edilə bilən tədris avadanlıqları və resursları üçün qaranlıq mühit lazımdır. Şərait olmayan sinifdə televiziya, proyektor, kompüter, internet və digər oxşar tədris avadanlıqları və müvafiq resurslardan istifadə etmək olmaz.

Tədris resurslarının seçilməsi və istifadəsində sinifdəki fiziki mühit: işıq, istilik kimi amillər də böyük əhəmiyyət kəsb edir. Xüsusilə texnologiya, kimya, fizika kimi fənlərin tədrisində tədris avadanlıqları və resurslarına, həmçinin fiziki mühitə böyük ehtiyacı vardır. Əgər bu fənlərin tədrisində müvafiq mühit, lazımlı avadanlıqlar və resurslar təmin edilməzsə, o fənlərin tədrisinin keyfiyyətindən belə bəhs etmək olmaz, istənilən hədəfləri qazandırmaq olmaz.

Resursun xüsusiyyətləri. Məktəbdə tədris avadanlıqlarının olub-olmaması da tədris metodu və resursun seçkisində böyük əhəmiyyət kəsb edir. Kompüter, internet bağlantısı, slayd proyeksiyası, epidiaskop, laboratoriya, TV-video və s. kimi tədrisin əsas avadanlıqları və resursların olub-olmaması tədris prosesində resursun seçilməsinə, istifadəsinə təsir edir. Hazırda texnoloji sahədəki tərəqqi pedaqoji sahədə istifadə edilən tədris avadanlıqları və resursların təchizatını, müvafiq fiziki şəraitin yaradılması, habelə idarə olunması ilə bağlı yeni imkanlar yaradır və zənginləşdirir.

Müəllimin müxtəlif, dəyişik, oxşar, ya da fərqli tədris avadanlıqları və resursların arasından ən uyğunu seçə bilməsi onun bu sahədəki sahib olduğu məlumata, bilik və bacarığa bağlıdır.

Dərsin və mövzunun xüsusiyyətinə uyğun müəllimin özü də daha sadə tədris resursu hazırlayaraq, konkret öyrənməni təmin edə bilər. Şagirdlərin bacarıq və yaradıcılıqlarından istifadə edərək, onların köməyi ilə ehtiyac duyulan tədris resursunu əldə etmək mümkündür. Xüsusi ilə ibtidai siniflərdə, həyat bilgisi və texnologiya dərslərində, fizika, kimya, biologiya, coğrafiya dərslərində həyatda olan gerçək əşyalardan da resurs kimi istifadə oluna bilər. Həmçinin hərəkətsiz vizual resursların hazırlanması və bunların şagirdlərin hər an görə bildiyi bir yerdən asaraq və ya yerləşdirərək öyrənməni daha zövqlü bir hala gətirmək olar.

**Məqalənin aktuallığı.** Şagirdlərdə yaradıcı təfəkkürün formalaşdırılması və inkişaf etdirilməsini ayrı-ayrı fənlər üzrə və onların təbiətinə müvafiq yalnız bir tədris resursu ilə deyil, başqa resurslarla vəhdətdə həyata keçirilməsi nəticəsində mümkündür. Burada ən böyük vəzifə təbii ki, tədris resurslarının seçilməsi üzərinə düşməlidir. Təhsildə hər hansı bir resursun istifadəsi ilk növbədə metodun, tədris resursunun sistemli şəkildə seçilməsini zəruri edir. Səmərəli bir öyrənmə ancaq bu şəkildə reallaşa bilər.

**Məqalənin elmi yeniliyi.** Əksəriyyət hallarda müvafiq tədris avadanlıqları və resursların seçilməsi müəllimdən müvafiq bacarıq və onlarla işləmək vərdişi tələb edir. Bu baxımdan məqalənin elmi yeniliyi ondan ibarətdir ki, təhsil hədəf və fəaliyyətlər üçün ehtiyac duyulan resursun seçilməsinin əhəmiyyəti ilə bağlı məsələlərə toxunulur, onun ümumi prinsipləri diqqət mərkəzinə gətirilir, tətbiqi ilə əlaqədar faydalı tövsiyələr verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə istifadəsi planlaşdırılmış tədris avadanlıqları və resursların seçiminə təsir edən amillərin vacibliyi əsaslandırılır, tədris prosesində istifadə olunması ilə bağlı müəyyən təsəvvür yaradılır. Müasir texnologiyalardan istifadə edilərkən, pedaqoji fəaliyyət prosesində onun əsas cəhətlərinin diqqətə çatdırılması xüsusilə böyük əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il Sərəncamı. "Xalq" qəz., 2013, 25 dekabr.

2. Çelik L. Öğretim materyallerinin hazırlanması ve seçimi. Ankara: Pegem Akademi, 2010.

3. Çivelek M. Ögretim Teknolojileri ve Materyal Tasarımı. Özet.KPSS Rehberlik ÖABT, 2015.

4. Koşar E. ve Çiğdem H. Eğitim ortamı tasarımı, araç-gereç ve materyal özellikleri. Öğretim teknolojileri ve materyal geliştirme. Ankara, Pegem A Yayıncılık, 2003.

5. Zeki K. Öğretim Teknolojileri ve Materyal Geliştirme. Ankara: PegemAYayıncılık, 2006.

6. Андресен Бент Б. Мультимедиа в образовании: специальный учебный курс. Информационные технологии в образовании. 2-е изд., испр. и доп. М.: Дрофа, 2007.

7. Мамедова Н.Рол современного учебного оборудования и электронных ресурсов в когнитивном развитии учащихся. Балтийский гуманитарный журнал. Россия, Калининград: Полиар Плюс, 2016, том 5, № 4.

8.Селевко Г.К. Современные образовательные технологии: Учебное пособие. М.: Народное образование, 1998.

9. Brown L.W., Lewis R.B., & Harcleroad F.F.AV instruction: Technology, media and methods (5th ed.). New York: McGraw Hill, 1977.

10. Gagne R. M., Briggs L. J. & Wagner W. W. Principles of Instructional Design .(4th ed.), Holt, Reinehart and Winston Inc. 1992.

11. Heinich R., Molend M., Russell J. Instructional Media and the New Technologies of Instruction, USA:MacMillan Publishing Company New York, 1993.

12. Məmmədova N. Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan istifadə imkanları: Metodik vəsait. Bakı: Mütərcim, 2017.

13. Tarakçı S. Jean Piaget' in Bilişsel Gelişim Yaklaşımı.
http://www.sunalptarakci.com/.ist.tarixi 14 sentyabr, 2015

**Н. Мамедова**

## Эффективный выбор учебных ресурсов

## Резюме

Для учащихся чрезвычайно важно выбрать подходящее учебное оборудование и ресурсы для изучения природы отдельных предметов при формулировании и развитии творческого мышления. Важнейшей задачей здесь является выбор образовательных ресурсов. Использование любого ресурса в образовании обязательно требует эффективного выбора учебного ресурса. Эффективное обучение может иметь место только таким образом.

В статье основное внимание уделяется важности выбора учебных ресурсов, факторы, влияющие на их выбор, доводятся до сведения, а также даются полезные рекомендации относительно приложения.

**N. Mammadova**

## Effective selection of teaching resources

## Summary

It is of utmost importance for students to select appropriate teaching equipment and resources for the nature of the individual subjects in the formulation and development of creative thinking. The most important task here is to choose educational resources. The use of any resource in education necessarily requires the effective selection of a learning resource. Effective learning can take place only in this way.

The article focuses on the importance of selecting teaching resources, the factors affecting their choice are brought to the focus, and useful recommendations are given regarding the application.

**Redaksiyaya daxil olub:** 19.07.2018